**Q.S.Süleymanov**

**UOT:339.9: 330.8; JEL: F10.**

# Azərbaycan iqtisadiyyatının innovasiyalı inkişafında Fransa təcrübəsindən istifadə yolları

***Xülasə***

*Tədqiqatın əsas məqsədi Azərbaycan iqtisadiyyatının innovativ inkişaf strategiyasının həyata keçirilməsində Fransa təcrübəsinin öyrənilməsi və ölkəmizdə ondan istifadə mexanizmlərinin formalaşdırılmasıdır. Bu məqsədlə, məqalədə Fransa dövlətinin makroiqtisadi inkişaf dinamikası tədqiq olunur, onun iqtisadi inkişafının uğurları və səbəbləri elmi cəhətdən əsaslandırılır. Məqalənin sonunda Azərbaycan iqtisadiyyatının strateji inkişaf perspektivlərində Fransanın iqtisadi inkişaf modelindən istifadə imkanları elmi cəhədən əsaslandırılır.*

***Açar sözləri:*** *Fransa iqtisadiyyatı, sənaye, makroiqtisadiyyat, ekologiya, Azərbaycan iqtisadiyyatı*

## Giriş

Azərbaycanda milli iqtisadiyyatın formalaşması, onun inkişaf perspektivləri və mövcud problemlərinin nəzəri cəhətdən tədqiqi bu sahədə dünya təcrübəsinin öyrənilməsini zəruri edir. Bunu nəzərə alaraq dövlət səviyyəsində dünyanın inkişaf etmiş iqtisadiyyata malik ölkələrinin təcrübəsinin Azərbaycan iqtisadiyyatında istifadə yolları tədqiq olunur. Bu istiqamətdə iqtisadi və siyasi cəhətdən geniş əlaqələrimizin olduğu Fransanın təcrübəsinin öyrənilməsinə böyük önəm verilir. Yüksək səviyyəli görüşlərin, biznes forumlarının, təcrübə seminarlarının keçirilməsi bunu əyani olaraq sübut edir. Fransa ilə əsasən aşağıdakı məsələlər üzrə təcrübə mübadiləsi aparılır: Azərbaycanda investisiya imkanları, nəqliyyat, informasiya kommunikasiya texnologiyaları, neft-kimya, əczaçılıq və ərzaq emalı da daxil olmaqla Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neft, qaz və bərpa edilən enerji də daxil olmaqla enerji sahəsində əməkdaşlıq. İki ölkə arasındakı əlaqələrdə Azərbaycanda iqtisadi və kommersiya əməkdaşlığı ilə bağlı imkan və risklərin təhlili, Azərbaycanda investisiya mühiti və imkanları haqqında son məlumatların verilməsi, iqtisadi və sənaye sahəsində potensial əməkdaşlıq sahələrinin genişləndirilməsi, Azərbaycan və Avropa ölkələri arasındakı iqtisadi əməkdaşlığın güclənməsinə kömək edə biləcək layihələrə dair müzakirələrin aparılması, daxili və xarici investisiya səviyyəsinin artımına yönəlmiş ən yaxşı təcrübə ilə bağlı informasiya mübadiləsinin aparılması, karbohidrogen resurslarından asılılığı azaldan, gələcək iqtisadi və sənayenin inkişafı üçün, xüsusilə də özəl sektorda starteji sahələrin müəyyənləşdirilməsi ilə Azərbycanda iqtisadiyyatını şaxələndirilməsindən irəli gələn imkanların təqdim edilməsi kimi məsələlər hər zaman diqqət mərkəzindədir.

## Fransa iqtisadiyyatının xarakterik xüsusiyyətləri

Fransa inkişaf etmiş və sənayeləşmiş bir ölkədir və Avropada üçüncü ən böyük iqtisadiyyata malikdir. 2017-ci ilin nəticələrinə əsasən Fransa 2.8 trilyon dolları olan ÜDM ilə dünyada nominal rəqəmlərə əsaslanan ən böyük 6-cı iqtisadiyyata malikdir. İqtisadiyyat hazırda 2008-ci ilin maliyyə tənəzzülündən sonra meydana gələn artımı nümayiş etdirir. Ölkədə 2017-ci il üçün real artım 3.1 faiz olmuşdur. Ölkə əhalisinin 3,3% -i kənd təsərrüfatında, 26,1% -i sənaye, 70,6% -i isə xidmət sektorunda çalışır [1]. Ölkənin ixrac miqdarı 490 milyard dollardır: maşın və nəqliyyat vasitələri, təyyarələr, plastik məmulatlar,



*© Q.S.Süleymanov Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, i.e.d, prof.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

kimyəvi maddələr, əczaçılıq məhsulları, dəmir, polad və alkoqolsuz içkilər kimi məhsullar. Ölkənin ən çox ixracat etdiyi ortaqları, Almaniya 14.7%, İspaniya 9.7%, İtaliya 8.7%, Birləşmiş Krallıq 8.3%, Belçika 7.1%, ABŞ 7.1% şəklindədir. Eyni şəkildə ölkədə idxal miqdarı 529,1 milyard dollar təşkil edir: maşın və hissələr, nəqliyyat vasitələri, xam neft, təyyarə, plastik məmulatlar, kimyəvi məhsullar. Ölkənin idxal tərəfdaşları Almaniya 18.9%, Belçika 10.7%, İtaliya 8.3%, İspaniya 7%, Hollandiya 6.6%, Birləşmiş Krallıq 5.9%, ABŞ 5.1% şəklindədir. Ölkənin xarici borcu 3,461 trilyon dollar təşkil edir.[4]

Əmək qabiliyyətli əhalinin təqribən 25%-i sənayedə çalışır. Ən mühüm sahələri energetika, maşınqayırma və kimyadır. Hasilat sənayesində daş kömür, dəmir filizi, boksit çıxarılması xeyli azalmışdır. Mərkəzi massivdə uran, cənub-qərbdə təbii qaz çıxarılır. Fransa mineral xammal idxalçısına çevrilmişdir. Ona görə də energetika sənayesində AES-lərin rolu getdikcə artır. Elektrik enerjisi istehsalında SES-lərin rolu da vardır. 2015-ci ildə Fransa Avropa ölkələri arasında elektrik enerjisi istehsalına görə Norveç və İsveçdən sonra 3-cü olmuşdur. Energetikanın inkişafı planlarında enerji daşıyıcılarının idxalının azaldılması və alternativ vasitələrdən (günəş, külək, dəniz qabarmaları enerjisi) istifadə olunması göstərilir.[2]

Fransa avtomobil istehsalında dünyada dördüncü yerdədir və Almaniyadan sonra Avropa İttifaqında (AB) ikincidir. 1974-cü ildə avtomobil istehsal edən Citroen avtomobillərini əldə edən Renault və Peugeot iki əsas avtomobil istehsal edən şirkətlərdir. Fransız avtomobil sənayesi bir zamanlar əsasən Paris və digər böyük şəhərlərdə yerləşirdi, lakin hazırda əsas mərkəzlər şimal-şərqdə və qərbdə Alsace və Lorraine-də yerləşir. Fransız firmalar, aviasiya, müdafiə, nəqliyyat və digər ixtisaslaşmış sənaye sahələrində texnoloji yeniliklər üzrə beynəlxalq səviyyədə tanınırlar. Fransız sərnişin qatarları və dəmir yolu avadanlıqları ölkə daxilində və xaricdə satılır və Fransanın istehsalı olan TGV qatarları dünyanın ən sürətli qatarlarıdır. Fransa qabaqcıl yük və hərbi təyyarələr, eləcə də bir çox növ hərbi texnika istehsal edir. Fransa nüvə enerjisi texnologiyasında dünya lideridir. Fransada böyük miqdarda elektronika, telekommunikasiya avadanlıqları, kompüterlər, televizorlar, radiolar və digər əşyalar istehsal edilir. Fransız mexaniki avadanlıq və maşın alətləri xaricə satılır. Dəmir və polad istehsalı, Fransadakı istehsalçıların getdikcə daha çox dəmir filizi idxalçısına çevrilməsinə baxmayaraq, Fransada vacib iş yeridir. Fransada böyük alüminium sənayesi mövcuddur. Fransız kimya sənayesi kimyəvi maddələr, plastiklər, gübrələr, həlledicilər, kosmetika məhsulları və dərman preparatları daxil olmaqla müxtəlif növ məhsullar istehsal edir. Pambıq, ipək və yun mallar istehsal edən tekstil və geyim sənayesi öz əhəmiyyətini saxlamaqdadır. Bu gün qida emalı məşğulluq baxımından Fransanın ən böyük istehsal sektorudır. Fransa dünyanın ən böyük şəkər çuğunduru istehsalçısıdır; İtaliyadan sonra ikinci ən böyük şərab istehsalçısı; Amerika Birləşmiş Ştatlarından sonra ikinci ən böyük pendir istehsalçısıdır. Digər tanınmış Fransız qida sənayesi məhsullarına ət, çörək və qənnadı məmulatları daxildir. [3]

**Fransa sənayesinin inkişafında əsas rol oynayan amillər**

Fransız sənayesi rəqabətqabiliyyətli sənaye edir. Sənaye istehsalı hesabına ticarət profisiti güclənmişdir. Paralel olaraq, Yaponiya, Almaniya və Böyük Britaniyada sənayenin bazarı payı azalıb. Fransada qonşularına nisbətən istehsal xərcləri daha aşağıdır və inflyasiyanın nəzarət altında tutulması sayəsində bu üstünlüklü vəziyyət davam etməkdədir. Rəqabət və cəlbedici güc də infrastrukturların keyfiyyətinə bağlıdır. Fransa torpaqları çox sayda xarici şirkəti özünə çəkməkdədir, çünki Avropada əlverişli bir coğrafi mövqedədir, həmçinin etibarlı və ucuz enerji qaynaqlarına, inkişaf etmiş bir nəqliyyat və telekommunikasiya şəbəkəsinə və yaxşı səviyyədə bir formal təhsil və universitet sisteminə malikdir. Xaricə açılış paralel olaraq xaricdə Fransız investisiyalarını da asanlaşdırır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Fransada xarici investisiyalar tərəfindən yaradılan məşğulluq, emal sənayesində olan hər il təxminən 30 min insana çatacağı təxmin edilir. Fransanın sənaye potensialının 30% -ni və böyük sənayenin təxminən yarısı ən qabaqcıl sektorlara yönəlmiş xarici qrupların nəzarəti altındadır. Xaricdə böyük Fransız sənaye qruplarının mövqeyinə cavab olaraq, bu xarici filiallar hər iki tərəfə əhəmiyyətli texnoloji zənginlik təmin edir. Ölkənin Avropaya və dünyaya etdiyi bu sənaye inteqrasiyasının zəmnində ölkəyə gətirilən güclərin yaratdığı məşğulluq və texnoloji transferlər ölkənin cazibə gücünü yaxşı bir səviyyədə tutmağa diqqət yetirməyi tələb edir. Bununla yanaşı dövlət, sənaye müəssisələrinin yükünü, xüsusilə də vergi yükünü və məşğulluğa mane olan sosial öhdəlikləri azaltmağa çalışır. Məsələn, aşağı əməkhaqqıdakı sosial ödəmələr və əmək haqqı üzrə mükafatların payı azaldılmışdır. Fransız sənayesi geniş bir sənaye fəaliyyəti sahələrini əhatə etməklə yanaşı, böyük ölçüdə uc sektorlara (nüvə enerji, neft, aviasiya, kosmik, telekommunikasiya) istiqamətlənməni davam etdirməkdədir, bu da, mərkəzli bir sənaye siyasətindən qaynaqlanır. Ancaq, sərhədlərin açılmasıyla birlikdə, Fransız sənayesinin inkişafı getdikcə daha çox bu müəssisələrin kommersiya müvəffəqiyyətinə, araşdırma sahəsindəki dinamizmine və açar texnologiyaları idarə etmə bacarığına əsaslanır. Bu yolla, Fransız avtomobil istehsalçıları Avropada beş il ərzində əhəmiyyətli bazar payına nail ola bilmişlər. Fransa sənayesinin əsas özünəməxsus cəhətlərindən biri də xidmət sektoru ilə vəhdətli şəkildə inkişaf etməsidir. Həqiqətən, sənaye istehsalı çoxsaylı xidmətlərin yaranmasına gətirib çıxarır. Bu xidmətlər tədqiqat, mühəndislik, logistika, ticarət, idarəetmə və ya informasiya işlənməsi başlığı altında toplana bilər. Adı çəkilən xidmətlər bazarda inkişaf etməkdədir. Daxili baxımdan xidmət sektorunda işçilərin dörddə bir hissəsi çalışır. Amma xidmətlər daha çox xaricə aparılmaqdadır, xidmət alışları isə şirkətlərin içində qalan sənaye əlavə dəyərinin az qala hamısına bərabər bir payı təmsil edir. Bu xidmətlər çox fərqlidir. Tədqiqat əsasən böyük qrupların inhisarındadır. Ticarət xidmətləri bir çox sənaye müəssisəsinin böyüməsinin əsas səbəbidir. Bir qədər məhdud İT xidmətlərinin əldə edilməsi də sürətlə inkişaf edir. Ümumi, inzibati və ya texniki xidmətlərə gəldikdə, onlar böyük sənaye müəssisələrinə daha çox yönəldilirlər. Paralel olaraq, sənaye avadanlıqları xidmət fəaliyyətində artan rola malikdir: avadanlıqların modernləşdirilməsi nəqliyyat vasitələrinin dinamikliyini təmin edir; İT logistikanı sıxışdırır; kompüter bank fəaliyyətini artırır. Sənayedə telekommunikasiya sektoru, yeni informasiya texnologiyalarının fövqəladə inkişafıyla təkmilləşməkdə və asanlaşmaqdadır. [ 6 ]

Texnologiya ölkənin iqtisadiyyatının mühüm bir iqtisadi sütunudur. Fransa dünyanın texnoloji cəhətdən ən inkişaf etmiş ölkələri sırasına daxildir və ölkədə texnoloji tədqiqatlar və innovasiyalar üçün ideal bir mühit var. Bu mühit dünyadakı ən böyük texnologiya şirkətlərinin böyüməsinə səbəb olmuşdur. Misal üçün, Fransanın şirkəti olan Publicis, dünyada üçüncü böyük reklam şirkətidir. Sophia Antipolis, böyük bir texnologiya parkı, Fransanın əsas texnoloji mərkəzidir. Valbonne'de yerləşən texnologiya parkında, Amadeus, Avanade, 3Roam, Air France, Cisco, Accenture, Broadcom, Intel, Huawei, IBM, Lionbridge və Orange daxil olmaqla bir çox əsas texnologiya şirkətinin ofisləri vardır. Texnologiya və təşkilat baxımından hər zaman ən yaxşı səviyyədə qalmaq məcburiyyətində olduğundan, sənayedə böyümə davamlı bir investisiya tələb edir, bu, heç şübhəsiz təchizata investisiya olduğu qədər, eyni zamanda da yenilik və araşdırma, yeni texnologiyaların doğru istifadəsi, təşkilat və insanların təhsili mövzularına da investisiya mənasını verir. İntellektual investisiyalar (Tədqiqat-İnkişaf, təlim, proqram təminatı) üçün də oxşarlıq mövcuddur. Avropadakı qonşularıyla müqayisədə, Fransanın ümumi Araşdırma və İnkişaf etdirmə səyləri olduqca yüksəkdir, ancaq bu, ictimai araşdırmalarının sayəsindədir. Bu səyləri daha məhsuldar hala gətirmək məqsədiylə sənayeçilər yavaş yavaş “Araşdırma və İnkişaf etdirmə” məsuliyyətini üzərlərinə götürmüşlər və bu gün şirkətlərin texnoloji araşdırması daha sürətli



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

irəliləməkdədir. Bununla yanaşı patentləşdirmə hələ də bəzi yüksək texnologiyalı sektorlarda qeyri-kafi olaraq qalır. Yenilik baxımından, ictimai qüvvələr müəssisələrin səylərini dəstəkləməyə çalışırlar. İkinci mövqedəki maliyyə təminatçısı olaraq, ictimai qüvvələr yenilikçi layihələrin 12% -ni maliyyələşdirir. Kiçik və orta ölçülü sənayeçilərə verilən bu dəstək çox əhəmiyyətlidir, çünki yenilikçi layihələrin 80 faizi, xüsusilə də əlaqədar layihənin müvəffəqiyyət şansını qiymətləndirmək üçün lazımlı vəsaitlərə sahib böyük qruplarda, layihə sahiblərinin özləri tərəfindən maliyyələşdirilir.

Rabitə, informasiya, tədqiqat və marketinq vasitəsi olaraq İnternet şəbəkəsi hələ də "yeni iqtisadiyyat" ın simvoludur. Elektron ticarət ağır inkişaf olsa da, indidən bir çox müəssisə texniki və kommersiya əlaqələrini daha yaxşı hala gətirmək məqsədiylə bu şəbəkəsi istifadə etməyə başlamışlar. Hətta bir neçə müəssisə internetdə öz daxili təşkilatlarını qurmuşlar. Amma bu sahədə Fransız müəssisələri digər avropalı rəqiblərinə görə gec qalmışlar. [ 5 ]

İxtisaslı kadr tələbləri hələ də əhəmiyyətlidir. Bu tələblər təkcə məktəblər və universitetlər çərçivəsində deyil, həm də peşə təhsili sahəsində dinamik təhsil siyasətinin faydasını göstərir. Ancaq Fransada bəzi çatışmazlıqlar var. Bəzən qeyri-kafi təhsil xərcləri çox gənc və artıq təlim keçmiş işçilərə xərclənir ki, bu da mövcud işçilərin keyfiyyətinin olmaması və işçi qüvvəsinin əksəriyyətinin yaşlanması səbəbindən cari balanssızlıqları artırır. Yaxşı bir ictimai dövlət olmanın nəticəsi olaraq, yüksək səviyyədə ictimai mükafat və vergi ödəyən və işçilərinin həftəlik iş müddətini məcburi olaraq 35 saat ilə məhdudlaşdırmaq məcburiyyətində olan Fransa xüsusi sektorunun, bu yüklər səbəbiylə digər inkişaf etmiş ölkələrə görə rəqabət gücü azalmışdır. 2007-ci ilin sonunda isə, çox işləyən işçilərin (35 saatdan çox) gəlirlərindən vergi güzəştləri edilməsinə qərar verilmiş və çox işləmək təşviq edilməyə çalışılmışdır.



**Fransa sənayesinin ekoloji problemləri**

Fransada sənayenin inkişafı ekoloji problemlərin yaranmasına gətirib çıxarmışdır. Belə ki, Fransanın zənginliyi onun təbii sərvətlərə olan tələbatının yüksək olduğunu göstərir. Resurs istifadə səmərəliliyində bir çox irəliləyiş əldə edilmiş olsa da, artan məhsuldarlıq artan tələbatla əvəz edilmişdir. Sərvətlərin artması ilə yanaşı, 2000-ci ildən başlayaraq bəri hər sakin üçün yığılmış bərk tullantıların istehsalatı 25% artmışdır. Dünyanın ən böyük neft və qaz istehsalçıları arasında olmasa da, ən böyük istehlakçıları arasında olan Fransa daha çox neft və qaz kəşfiyyatı lisenziyasını buraxmamaq qərarı ilə ekoloji pioner olmağa ümid edir.Hökumət ətraf mühitə daha çox enerji mənbələrinə keçid hissəsi kimi addım atır. Total, ən böyük neft və qaz şirkəti - əslində ən böyük şirkət - öz ərazisində heç bir sahədə fəaliyyət göstərmir. Total neft ilə zəngin ABŞ, Səudiyyə Ərəbistan, Rusiya kimi ölkələrdə fəaliyyət göstərir. Çünki bu ölkələrdə, aşağı xərcli emal və petrokimya əsaslı sənaye mövcuddur. Avropa İttifaqının üzvü olan Fransa, ətraf mühitə təsirləri azaltmaq üçün resursların istifadəsi və istehsal vərdişlərini dəyişdirməyə çalışır. Fransa hökuməti tərəfindən çirklənmənin emissiyalarının suya axıdılmasının qarşısını almaq üçün bir çox milli və ərazi fəaliyyət planları həyata keçirilir. Xüsusilə, ölkənin Ecophyto hərəkət planı və nitrat zəif zonalarının təyin edilməsi kənd təsərrüfatı təcrübələrində dəyişikliklərə gətirib çıxarır.

*Fransa sənayesinin Azərbaycan sənayesindən fərqləndirən əsas cəhətlər*

- ⇨ İntensiv sənaye istehsalı. Fransa sənayesi istehsalda qabaqcıl metodların, müasir, innovativ texnika və texnologiyaların tətbiqinə əsaslanmaqla xammal və materiallardan, işçi qüvvəsindən və digər istehsal resurslarından səmərəli istifadəylə səciyyələnir.
- ⇨ Sənayenin çoxşahəli inkişafı. Fransa sənayesi energetika, maşınqayırma kimya, kosmik, neft sənaye sahələri başda olmaqla demək olar ki, bütün sənaye sahələrini özündə birləşdirir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ⇨ Emal sənayesinin yüksək inkişafı. Təbii resurslarla o qədər də zəngin olmayan Fransa İEOÖ-dən xammal idxal edir və xammalı emal edərək hazır məhsul kimi həmin ölkələrə ixrac edir.
- ⇨ İstehsalda mütərəqqi texnologiyaların tətbiqi;
- ⇨ İstehsal xərclərinin çoxluğu;
- ⇨ İxtisaslı kadrların yetişdirilməsinə böyük əhəmiyyət verilməsi.

**Azərbaycan və Fransa arasında iqtisadi əlaqələr**

Azərbaycan və Fransa arasında sənaye sahəsində bir sıra layihələr həyata keçirilmişdir. Bu layihələr neft və kosmik sənaye sahələrini əhatə edir. Azərbaycan Respublikasının ilk peyki "Azərspace-1" Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan "Ariane-5" daşıyıcı raketi ilə orbitə buraxılıb. Bu, iki ölkə arasında yüksək kosmik texnologiyalar sahəsində qurulan sıx tərəfdaşlıq nəticəsində mümkün olmuşdur. Bu layihənin növbəti mərhələləri də ölkələr arasında bu sahədə əməkdaşlığı nəzərdə tutur. Dövlət Neft Şirkəti ilə Fransanın «Total» şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda «Abşeron» dəniz yatağı blokunun kəşfiyyat, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalanıb. Sənədə əsasən, Dövlət Neft Şirkəti layihədə 40, «Total» şirkəti isə 60 faiz iştirak payına malikdir. Kəşfiyyat dövründə Dövlət Neft Şirkətinin ortaq neft şirkətinin payına düşən bütün xərc və məsrəflərin maliyyələşdirilməsi podratçı tərəfin üzərinə düşür.

**Azərbaycan iqtisadiyyatının Fransa iqtisadiyyatınıa inteqrasiya imkanları**

Yuxarıda aparılmış araşdırmaları ümumiləşdirərək, belə mühakimə yürürmək olar ki, yüksək səviyyədə inkişaf etmiş Fransa iqtisadiyyatının inkişafı üzrə mövcud təcrübənin öyrənilməsi və Azərbaycan iqtisadiyyatına tətbiqi ölkəmizin makroiqisadi inkişafında mühüm rol oynaya bilər. Fransa təcrübəsindən ölkəmizdə praktiki istifadə imkanları aşağıdakı istiqamətlərdə daha səmərəli ola bilər:

- Restrukturizasiya prosesinin həyata keçirilməsi;
- İntensiv inkişaf yolu seçilməklə ümumi daxili məhsulda qeyri-neft sektorunun payının artmasına nail olmaq;
- Müasir texnologiyalara əsaslanan qeyri-neft sənayesi müəssisələrində beynəlxalq standartların tətbiqinə keçidin sürətləndiriməsi;
- Azad rəqabət mühitinin dahada inkişaf etdirilməsi;
- İnvestisiyaların təşviqi ilə bağlı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsi;
- Qeyri-neft sənayesi üzrə istehsal sahələrinin və sənaye klasterləşməsinin genişləndirilməsi;
- Elm tutumlu istehsalın inkişaf etdirilməsi məqsədilə tətbiqi elmlərin, müasir şəraitdə bazar konyunkturunun tələblərinə uyğun tədris və elmi-tətqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi.

**Nəticə**

Təklif edilmiş istiqamətlər üzrə iqtisadi islahatların praktiki olaraq həyata keçirilməsi Azərbaycanı dünyanın əsas iqtisadi güc mərkəzlərindən birinə çevrilməsinə səbəb olar. Bu isə ölkəmizə böyük sinergetik səmərə verə bilər.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. Axundov N.A,Məmmədov C.A-Dünya dövlətlərinin əsas coğrafi,siyasi və iqtisadi göstəriciləri (Avrasiya ölkələri) . Bakı, 2016.
2. http://www.countriesquest.com/europe/france/economy
3. https: // fr.wikipedia.org/wiki/France
4. https: //www.academia.edu
5. https: //country.eiu.com
6. https: //www.slideshare.net
7. https: //www.map-france.com
8. https: //www.insee.fr/en/statisques
9. https: //www.reference.com


***Г.С.Сулейманов***

***Способы использования Французского опыта в инновационном развитии экономики Азербайджана***

***Резюме***

*Основная цель исследования изучить опыт Франции в реализации стратегии инновационного развития Азербайджана и сформулировать механизмы ее использования в нашей стране. В статье исследуется макроэкономическая динамика французского государства, научно обоснованы успехи и причины его экономического развития. В конце статьи показаны перспективы стратегического развития экономики Азербайджана, научно оьоснована возможность использования модели экономического развития Франции.* ***Ключевые слова****: французская экономика, промышленность, макроэкономика, экология, экономика Азербайджана*



***Q.S.Suleymanov***

***Usage of the French experience in the innovative development of the Azerbaijan economy***

***Abstract***

*The main purpose of the research is to study the experience of France in the implementation of the innovation development strategy of Azerbaijan and to formulate mechanisms of its use in our country. In this article the macroeconomic dynamics of the French state are investigated, the successes and causes of its economic development are scientifically justified. At the end of the article, The possibility of using France's economic development model in the perspectives of the Azerbaijani economy's strategic development.is scientifically justified*

***Key words****: French economy, industry, macroeconomics, ecology, Azerbaijan economy*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 27.05.2019.***
***Çapa qəbul olunub: 30.05.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*